# Azərbaycan Respublikası Milli Məclisinin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərovun çıxışı

**Çox hörmətli yığıncaq iştirakçıları!**

**Əziz dostlar!**

Bu gün biz sizinlə Qəbələ rayonunda sosial-iqtisadi sahədə bu ilin 9 ayında görülmüş işlər və qarşıda duran vəzifələr barədə məsələni xalqımızın bayram əhval-ruhiyyəsində olduğu bir vaxtda müzakirə edirik. Qeyd olunan dövrdə rayonda sosial-iqtisadi sahədə əldə olunmuş nailiyyətlər barədə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin məruzəsində və çıxışlarda ətraflı məlumat verildi. Mən də öz növbəmdə əldə olunan müvəffəqiyyətlərə görə sizi təbrik edir və bu uğurların qazanılmasında hər birinizin iştirakını yüksək qiymətləndirir, hamınıza təşəkkürümü bildirirəm. İnanıram ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də bundan sonra sosial-iqtisadi sahədə böyük nailiyyətlər əldə olunacaqdır.

Bu gün burada həm məruzədə, həm də çıxışlarda qeyd olundu ki, 9 oktyabr 2013-cü ildə ölkəmizdə çox yüksək səviyyədə, seçicilərin böyük fəallığı şəraitində Respublika Prezidenti seçkiləri keçirildi. Xalqımız bu seçkilərdə çox böyük ruh yüksəkliyi ilə möhtərəm cənab İlham Əliyevi növbəti dəfə ölkə Prezidenti seçdi.



Bu ilki Prezident seçkiləri əvvəlkilərdən köklü şəkildə fərqlənirdi. Bizə dost olan və olmayan xarici dövlətlər hamısı bu seçkiyə xüsusi maraq göstərirdilər. Təsadüfi deyil ki, bu seçkidə xarici müşahidəçilərin sayı əvvəlkindən çox idi. Seçkilər çox uğurla keçdi. Xalqımız öz sevimli rəhbərinə səs verdi.

Yaşasın qədirbilən Azərbaycan xalqı!

Rayonumuzda da seçkilər uğurla keçdi. İlham Əliyevin növbəti dəfə ölkə Prezidenti seçilməsi ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də bayram əhval-ruhiyyəsi ilə qarşılandı. İnsanlar hamısı bir-birini təbrik edirdi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini müzakirə edərək Mərkəzi Seçki Komissiyasının qərarını təsdiq etdi. Mən özüm də Konstitusiya Məhkəməsinin yığıncağında iştirak edirdim.

Oktyabr ayının 19-da Azərbaycan Respublikası Milli Məclisinin iclas zalında ölkə Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimi oldu. Bu andiçmə mərasimi cənab Prezidentin arzusuna uyğun olaraq çox sadə təşkil olunmuşdu. Beləliklə, Prezidentimiz bir daha təvazökarlıq göstərərək təntənədən uzaq sadə yolu seçdi. Mən həmin mərasimdə sizi təmsil edirdim. Yəni siz hamınız orada idiniz. Bütün xalq orada idi. Hörmətli Prezidentimiz də həmişə xalqın yanındadır. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz ötən il ad gününü məcburi köçkünlərin yanında keçirmişdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev andiçmə mərasimində Azərbaycanımızın dünəni, bu günü və sabahı haqqında elə danışdı ki, bunu ancaq bütün həyatını xalqa həsr etmiş bir adam edə bilərdi. Allah onu qorusun!

Avropa ölkələrini, ABŞ-ı iqtisadi-sosial böhranın bürüdüyü bir dövrdə cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə baş verən sürətli inkişaf, sabitlik bütün dünyanın nəzərini və marağını cəlb edir. Azərbaycan hazırda bütün dünyaya sabitlik, sakitlik, inkişaf nümunəsi göstərir. Möhtərəm Prezidentimiz öz fəaliyyəti ilə dünyaya sübut etdi ki, o ölkədə sabitliyin və inkişafın qarantıdır. Məhz buna görə xalq da onu seçdi.

Çox təəssüf ki, Azərbaycanda hələ də düşmənlərimizin dəyirmanına su tökən qüvvələr vardır. Onlar hər vasitə ilə Azərbaycanda qarışıqlıq salmaq istəyirlər. Ancaq prezident seçkiləri sübut etdi ki, xalqımız heç bir təxribata yol verməyəcək.

Mən bir daha xalqımızı təbrik edirəm. İcazə verin sizin adınızdan bir daha möhtərəm Prezidentimizi qələbə münasibətilə təbrik edim, ona cansağlığı, uzun ömür, Azərbaycanımızın daha xoşbəxt gələcəyi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayım.

Diqqətinizə görə sağ olun.

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

**(Əvvəli 3-cü səhifədə).**

Rayonda 2013-cü ilin məhsulu üçün 25958 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Onun 19303 hektarını buğda, 6655 hektarını isə arpa sahələri təşkil edir. Biçilmiş sahələrdən 65400 ton məhsul toplanmış və məhsuldarlıq hər hektardan 25,2 sentner olmuşdur.

Torpaq sahibləri tərəfindən indiyədək 2013-cü ilin məhsulu üçün 6040 ha sahədə yazlıq bitkilər əkilmişdir ki, bunun da 1085 hektarını kartof, 2095 hektarını tərəvəz, 1366 hektarını qarğıdalı, 132 hektarını bostan bitkiləri, 1258 hektarını isə birillik və coxillik otlar təşkil etmişdir. Həmin sahələrdən 7082 ton kartof, 9430 ton tərəvəz, 1888 ton bostan məhsulu, 3270 ton qarğıdalı, 11261 ton meyvə, 3193 ton üzüm istehsal olunmuşdur. Payız əkini üçün 11040 hektar sahə şumlanmışdır.

Hazırda rayon üzrə 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayon üzrə iri buynuzlu malqaranın sayı keçən ilin müvafiq dövrünə nisbətən 554 baş artaraq 53109 başa, qoyun-keçilər 606 baş artaraq 218676 başa, donuzların sayı 67 baş artaraq 1010 başa çatmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Belə ki, ət istehsalı 223 ton artaraq 3664 tona, süd istehsalı 7010 ton artaraq 26743 tona, yumurta istehsalı 872 min ədəd artaraq 8191 min ədədə, yun istehsalı isə 8 ton artaraq 461 tona çatdırılmışdır. Əhalinin quş ətinə olan tələbatının təmin edilməsi üçün broyler quşçuluq kompleksi istifadəyə verilmişdir.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 10 süni mayalanma məntəqəsi fəaliyyət göstərir. Ötən dövr ərzində 3030 baş inək və düyələrdə yüksək məhsuldar heyvanların əldə olunması üçün süni mayalanma aparılmışdır.

Respublikamızın paytaxtı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edir. 2013-cü ilin 9 ayı ərzində həmin yarmarkalarda 46 ton tumlu, 61 ton qərzəkli, 6,8 ton çəyirdəkli meyvələr satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Digər kənd təsərrüfatı sahələrinin inkişafına da diqqət yetirilir. Əhali arasında meyvəçiliyin və üzümçülüyün inkişaf etdirilməsi istiqamətində təbliğat işləri genişləndirilmişdir. Mövcud bağ sahələri 5603 hektar, üzüm plantasiyaları isə 460 hektardır. Keçən dövr ərzində bağlarda və plantasiyalarda aqrotexniki işlər davam etdirilmiş, əhalinin əsas hissəsinin məşğulluğu təmin olunmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Vətəndaşların qəbulu, onları düşündürən məsələlərin həlli istiqamətində də müvafiq işlər görülmüşdür. 2013-cü ilin doqquz ayı ərzində rayon icra hakimiyyətinin başçısı aparatına ümumilikdə 843 ərizə daxil olmuşdur. Bundan 324-ü Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından, 22-si Milli Məclisdən, 10-u Nazirlər Kabinetindən, 54-ü mərkəzi icra orqanlarından, 433-ü isə vətəndaşlardan daxil olmuşdur.

Qeydiyyata alınan ərizələrin hər birinə RİH-də baxılaraq qanunamüvafiq qaydada cavab verilmişdir.

Daxil olan müraciətlərdə ilk növbədə ölkə rəhbərliyi tərəfindən Azərbaycan vətəndaşlarının bu günü və gələcəyi naminə həyata keçirilən geniş-miqyaslı quruculuq işlərindən, yerlərdə müasir tələblərə cavab verən sosial obyektlərin tikilib istifadəyə verilməsindən razılıq hissləri ifadə olunur və cənab prezidentin gördüyü geniş miqyaslı xeyirxah işlər olduqca yüksək qiymətləndirilir.

Eyni zamanda cari ilin doqquz ayı ərzində rayon icra hakimiyyətində başçı tərəfindən 977 nəfər vətəndaş qəbul edilərək dinlənilmiş, qəbul zamanı səslənən məsələlərin çox hissəsi yerində araşdırılaraq həll edilmiş, icrası vaxt tələb edən məsələlər isə aidiyyəti üzrə tapşırılmışdır.

2013-cü ilin 9 ayında rayon icra hakimiyyəti başçısının 31 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 4374 nəfər iştirak etmiş, onlardan müxtəlif səpkili təkliflərlə 311 nəfər çıxış etmişdir. Tələblərin və müraciətlərin 297-si həll edilmiş, 14 məsələnin həlli isə respublikanın mərkəzi icra orqanları tərəfindən icra edilməli olduğundan onların qarşısında təkliflər qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahibərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasında qarşıda duran vəzifələrdən danışan cənab İlham Əliyev ilin 9 ayında əldə edilmiş müsbət dinamikanın qorunması ilə bağlı tədbirlərin bundan sonra da davam etdirilməsinin vacib olduğunu qeyd etmişdir.

**(Ardı 5-ci səhifədə).**